# Almaniyanın biznes nümayəndələri ilə görüş keçirilib

## İqtisadiyyat Nazirliyində həmçinin "ACWA Power" şirkəti ilə birgə təşəbbüslər müzakirə edilib



**İqtisadiyyat naziri Mikayıl Cabbarov ölkəmizdə səfərdə olan Almaniya biznes nümayəndələri ilə görüşüb. Bu ölkənin aparıcı enerji şirkətlərinin nümayəndələrinə Azərbaycanın biznes və investisiya imkanları barədə məlumat verilib.**

Görüşdə beynəlxalq tərəfdaşların Azərbaycanda fəaliyyəti üçün əlverişli investisiya mühitindən danışılıb. Vurğulanıb ki, həyata keçirilən davamlı iqtisadi islahatların nəticəsində qeyri-neft iqtisadiyyatı və ixracı ildən-ilə artır. Ölkəmizin makroiqtisadi sabitliyi və insan kapitalının inkişafı Azərbaycanın iqtisadi imkanlarını daha da genişləndirir.

Qeyd edilib ki, alman şirkətləri ilə əməkdaşlığımızın uğurlu təcrübəsi iqtisadiyyatın müxtəlif sahələri üzrə əlaqələrin inkişafına stimul verir. Həmçinin Azərbaycanda bərpaolunan enerjinin inkişafı məqsədilə həyata keçirilən layihələr barədə danışılıb, Avropa İttifaqı ilə ölkəmiz arasında enerji sahəsində tərəfdaşlıq vurğulanıb.

Görüşdə Azərbaycanda qarşılıqlı sərmayələrin təşviqi və potensial birgə layihələr barədə fikir mübadiləsi aparılıb.

Nazirliyin yaydığı başa bir məlumatda bildirilir ki, iqtisadiyyat naziri Mikayıl Cabbarov Səudiyyə Ərəbistanı Krallığının "ACWA Power" şirkətinin baş icraçı direktoru Marko Arçelli ilə görüşüb. Görüşdə dəniz suyunun duzsuzlaşdırılması layihəsi, təcrübə mübadiləsi və birgə təşəbbüslər müzakirə olunub. "ACWA Power"in Azərbaycanda həyata keçirdiyi layihələrin əhəmiyyəti vurğulanıb, onların ölkənin enerji resurslarının diversifikasiyasına və ekoloji dayanıqlılığının artırılmasına xidmət etdiyi qeyd edilib. Təcrübə mübadiləsinin və şirkətin innovativ yanaşmalarının enerji sahəsində daha effektiv, təmiz və iqtisadi baxımdan sərfəli həllərin tətbiqinə imkan yaratdığı qeyd olunub.

Görüşdə həmçinin şirkət tərəfindən enerjidən səmərəli istifadəni artırmaq, su resurslarından rasional istifadəni təmin etmək istiqamətində həyata keçirilən layihələr barədə məlumat verilib. Tərəflər əməkdaşlığın gündəliyində olan məsələlər, Azərbaycanda dəniz suyunun duzsuzlaşdırılması layihəsi və potensial birgə təşəbbüslər barədə fikir mübadiləsi aparıblar.

Məlumat üçün bildirək ki, Səudiyyə Ərəbistanının enerji, xüsusilə bərpaolunan enerji sektorunda aparıcı şirkətlərindən olan "ACWA Power" şirkəti dünyanın bir sıra ölkələrində bərpaolunan enerji mənbələrindən elektrik enerjisi istehsalı, duzsuzlaşdırılmış su istehsalı üzrə layihələrdə developer, investor və operator kimi iştirak edir.

Azərbaycan.- 2025.-5 aprel (№ 65).- S.10.